# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/4** **11 mart 2014-cü il**

## Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) tətbiqi və icrası barədə

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 13.2-ci və Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 6.2.1-ci bəndlərinə uyğun olaraq, Auditor xidmətinin inkişaf konsepsiyasının tətbiqi və icrası barədə təqdimatın keçirilməsi və müvafiq qurumlara göndərilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) tətbiqi və icrası ilə əlaqədar 2014-cü il 11 aprel tarixində müvafiq qurumların və Auditorlar Palatası üzvlərinin iştirakı ilə Auditorlar Palatasında konsepsiyanın təqdimat mərasimi keçirilsin.
2. "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) tətbiqi və icrası" ilə əlaqədar keçirilən təqdimatın Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
3. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova, Palata sədrinin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri S.Məmmədzadəyə və Təsərrüfat bölməsinin müdiri N.İsmayılova tapşırılsın ki, tədbirin keçirilməsi ilə bağlı təşkilati işlərin həyata keçirilməsini təmin etsinlər.
4. Palata sədrinin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri S.Məmmədzadəyə tapşırılsın ki, konsepsiyanın rus və ingilis dillərində tərcüməsini təmin etsinlər.
5. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova və sədrin müşaviri R.Ələkbərova tapşırılsın ki, bu sərəncamın və konsepsiyanın mətnini Palatanın internet səhifəsində yerləşdirsinlər.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**